## Təhsilin beynəlmiləlləşməsi siyasəti

### Fəaliyyətin əsas mahiyəti, istiqamətləri

Bakı Slavyan Universiteti (BSU) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn vəzifələrin həlli və digər qanunvericilik aktlarına müvafiq olaraq, universitetdə təhsil prosesinin müasir tələblər səviyyəsində qurulması məqsədi ilə dünyada mövcud olan qabaqcıl təhsil sistemlərinin nəzəri və praktiki təcrübəsinin öyrənilməsi eləcə də tətbiqinə daim xüsusi əhəmiyyət verir, bu sahəyə başlıca vəzifələrdən biri kimi böyük diqqət yetirir.

Universitetin beynəlxalq əlaqələrinin genişlənməsi, xarici ali məktəblərlə əməkdaşlığın qurulması, birgə fəaliyyət sahələrinin müəyyən edilərək qarşılıqlı razılaşmaların təsbit olunduğu saziş, protokol, memorandumlarla rəsmiləşdirilməsi, təhsilin beynəlmiləlləşməsi, beynəlxalq təhsil proqramlarının, müxtəlif ikili diplom, bilinqual təhsil proqramlarının icrası bu istiqamətdə fəaliyyətdə mühüm əhəmiyyət kəsb edir.

Qarşıdakı illərdə BSU-da akademik araşdırmaların, elmi-tədqiqat işlərinin genişlənməsi, tələbə mübadilələrinin keyfiyyətinin yüksəldilməsi, universitetdə təhsil alan əcnəbi tələbələrin və əcnəbi müəllimlərin sayının artırılması əsas vəzifələrdən biridir. Universitet bu sahələrdə fəaliyyətlərini daha da genişləndirməyi, 2030-cu ilə qədər BSU-da təhsil alan əcnəbi tələbələrin sayını ümumi universitet üzrə 2%-dən 10 %-ə çatdırmağı nəzərdə tutur.

Tədqiqatların beynəlmiləlləşməsi və əhatəliliyinin xarici tərəfdaşlar hesabına genişlənməsi məsələsi “BSU 2030” Strateji İnkişaf Planının (SİP) mühüm məqsədlərindən biridir. Ona görə də Universitet müxtəlif beynəlxalq layihələrdə, o cümlədən regional və Avropa tədqiqat layihələrində iştirakını artırır.

BSU-da çalışan alim, tədqiqatçıların elmi işlərinin keyfiyyətinin artırılması, beynəlxalq elmi-metodiki bazalarda araşdırmalarının nəşri işinin stimullaşdırılması və beynəlxalq impakt-faktorlu jurnallarda məqalə saylarının artırılması vasitəsilə tədqiqat nəticələrinin daha geniş auditoriyalara çatdırılması, onların tədqiqatlarının nəticələrinə istinadların artması universitetin ümumi fəaliyyətində önəmli yer tutur.

2024-cü və sonrakı illərdə təhsilin beynəlmiləlləşməsi istiqamətində BSU aşağıdakı hədəfləri və ona uyğun strateji fəaliyyət prinsiplərini müəyyən edir.

**Hədəf 1. Universitetin təqdimi və təbliği**

1. Xarici ölkələrdən universitetə abituriyentlərin və magistraturada təsil almaq arzusunda olan gənclərin cəlb edilməsi istiqamətində fəaliyyətin təkmilləşdirilməsi, səmərəli və effektiv həlli yollarının tətbiqi;
2. BSU-nun təhsilvermə imkanları, ixtisaslar, diplomlarının tanınması barədə təbliği işinin genişlənməsi;
3. BSU-nun məzunları ilə əlaqə və Universitetin tanıdılmasında onların rolunun müəyyənləşdirilməsi;
4. BSU-da son illər təhsil səviyyəsinin yüksəldilməsi, əldə olunan uğurlar barədə elektron resurslarda Azərbaycan, türk, ingilis və rus dillərində məlumatların yerləşdirilməsi, mütəmadi yenilənməsi;
5. Respublika və xarici KİV-də BSU-nun son illər əldə etdiyi nailiyyətlərin, beynəlxalq əməkdaşlıq fəaliyyətinin səviyyəsinin yüksəldilməsi sahəsində real uğurların təbliği işinin aparılması;

6. Əcnəbi tələbələr üçün elektron müraciət sisteminin təkmilləşdirilməsi, qəbul komissiyasının işinin daha çevik, operativ qurulması;
7. Əcnəbi tələbələrin BSU-ya cəlb edilməsi üçün təqaüd imkanlarının araşdırılması və əlverişli, cəlbedici təqaüd proqramlarının təklif edilməsi;
8. Əcnəbi tələbələr və müəlllimlər üçün distant təhsil imkanlarının yaradılması;(hazırlıq və ixtisasartırma kursları üzrə)
9. Əcnəbi tələbələrin BSU-da keçirilən tədbirlərdə iştirakının, fəallığının artırılması, onlar üçün bərabər imkanların yaradılması;
10. Elm və Təhsil Nazirliyi, yaradıcılıq ittifaqları, diaspor təşkilatlarının və digər universitetlərin təşkil etdiyi tədbirlərdə xarici tələbələrin iştirakının təmin olunması;
11. BSU-da təhsil alan əcnəbi tələbələrin yataqxanada yerləşdirilməsi və onların asudə vaxtlarını səmərəli keçirmələrinə diqqət və qayğının artırılması.

**Hədəf 2. Təhsil və tədqiqatın beynəlxalq standartlara uyğunlaşdırılması və effektivliyinin artırılması**

1. Dünyanın reytinqli, effektiv təhsil verən universitetlərinin təcrübəsinin öyrənilməsi və BSU-da tətbiqi imkanlarının araşdırılması sahəsində işlərin səviyyəsinin yüksəldilməsi;
2. Beynəlxalq standartlara cavab verən təhsil və tədris proqramlarının əldə edilib tərcümə olunaraq BSU-nun profilinə uyğunlaşdırılması, nəşri;
3. BSU-da çalışan əcnəbi müəllimlər və tələbələr üçün "Azərbaycan dilini öyrənirik" başlığı altında təlim kurslarının açılması və kursların səmərəli təşkili üçün peşəkar kadrların seçilib bu sahədə fəaliyyətə cəlb edilməsi;
4. BSU-nun professor-müəllimləri və inzibati heyətinin xarici dillərdə bilik və praktik vərdişlərinin yüksəldilməsi üçün imkanların artırılması; müvafiq qurumlarla əməkdaşlıq çərçivəsində uyğun imtahanlarda iştirakının təşviq edilməsi;
5. Yüksək ixtisaslı xarici alimlərin, peşəkar təlimçilərin BSU-ya dəvət edilməsi, onların bilik və bacarıqlarından bəhrələnmək üçün tədbirlərin təşkili;
6. BSU-da çalışan alim, tədqiqatçıların elmi işlərinin keyfiyyətinin artırılması, beynəlxalq elmi-metodiki bazalarda araşdırmalarının nəşri işinin stimullaşdırılması və beynəlxalq impakt-faktorlu jurnallarda dərc olunan məqalə saylarının artırılması üçün müvafiq məzmunlu təlimlərin təşkili;
7. BSU-da aparılan tədqiqatların nəticələrinin daha geniş auditoriyalara çatdırılması, istinad səviyyəsinin yüksəldilməsi sahəsində işin gücləndirilməsi professor-müəllim heyətinin müvafiq məzmunlu seminarlar vasitəsi ilə məlumatlandrılması;
8. BSU əməkdaşlarının yerli və beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakının təşviqi;
9. Əcnəbi tələbələrin ana dillərində orta təhsil aldığı ölkələrdən mütəxəssislərin tədrisə cəlb olunması imkanlarının araşdırılması və xaricdən ekspertlərin cəlbi ilə təcrübə mübadiləsinin təşkili;

10. Əcnəbi tələbələrin Azərbaycanın tarixi, mədəniyyəti, dili, coğrafiyası ilə daha yaxından tanış olması üçün mədəni proqramların tərtibi və maarifləndirici tədbirlərin hazırlanıb həyata keçirilməsi;
11. Xarici tərəfdaş universitetlərlə birlikdə qış/yay məktəblərinin təşkili;
12. Xarici tələbələrin perspektivdə Azərbaycanda, yaxud Azərbaycanla bağlı elmi-tədqiqat işlərinə cəlb edilməsinə xüsusi diqqət yetirilməsi;
13. Xarici tələbələrin məqalə, araşdırmalarının BSU və respublika mətbuatında, elmi nəşrlərdə yayılmasına yardım göstərilməsi;
14. Pedaqoji kadr hazırlığı üzrə tanınmış akkreditasiya təşkilatlarının/proqramlarının iş üslubunun araşdırılıb öyrənilməsi və BSU-da tətbiqi/qurulması işinin təşkili;
15. BSU-da fəaliyyət göstərən təlim, tədris və mədəniyyət mərkəzlərinin fəaliyyətinin və koordinasiya işinin səviyyəsinin yüksəldilməsi;
16. BSU-nun xaricdəki Azərbaycanşünaslıq, Azərbaycan dili və mədəniyyət mərkəzlərinin effektiv fəaliyyətinə nail olunması, bu mərkəzlərlə mütəmadi əlaqələrin qurulması üçün cavabdeh əməkdaşların məsuliyyətinin artırılması;
17. Universitetdə əcnəbi tələbələrin təhsilinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, elmi-tədqiqat və təhsil müəssisələri ilə əlaqələrin gücləndirilməsi, birgə tədbirlərin təşkili.

**Hədəf 3.Beynəlxalq layihə və proqramlarda iştirak**

1. Xarici ali təhsil məktəbləri, elmi-tədqiqat müəssisələri ilə, diplomatik korpuslarla, beynəlxalq təşkilatlarla əməkdaşlıq müqavilələri və anlaşma memorandumların imzalanması və imzalanmış sənədlər çərçivəsində tələbə-müəllim-işçi mübadiləsi aparılması, müxtəlif birgə layihələrin həyata keçirilməsi;
2. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xarici tərəfdaşların sayının artırılması, səmərəli əməkdaşlıq və ikili diplom layihə imkanlarının araşdırılması və tətbiqi;
3. Xarici ali təhsil müəssisələrinin qabaqcıl təcrübəsinin araşdırılıb öyrənilməsi və təcrübə mübadiləsinin təşkili; ehtiyac olduğu təqdirdə BSU-nun tədris proqramlarına tətbiqi;
4. Beynəlxalq ikili diplom müqavilələrinin effektiv icrası üçün xarici tərəfdaşlarla qarşılıqlı əməkdaşlığın gücləndirilməsi;
5. BSU-da beynəlxalq mübadilə/proqram müraciət prosedurlarının sadələşdirilməsi və Beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirak sayının artırılması üçün yeni imkanların araşdırılması

**Hədəf 4. Beynəlxalq nüfuzun artırılması**

1. BSU-nun təhsil və müasir infrastruktur layihələrinin tətbiqi sahəsində əldə etdiyi uğurların təbliği yolu ilə beynəlxalq nüfuzunun, rəqabətə davamlılığının artırılması istiqamətində fəaliyyətlərin gücləndirilməsi;
2. BSU-da formalaşmış ənənəvi xoş mənəvi-psixoloji atmosferin, beynəlmiləlçi dostluq mühitinin qorunub saxlanması və daha da inkişafına nail olunması;

3. Beynəlxalq reytinq qurumlarının tələblərini nəzərə almaqla ali təhsil müəssisəsinin inkişaf göstəricilərinin yaxşılaşdırılması;
4. BSU-nu beynəlxalq, regional və yerli təhsil sərgilərində təmsil olunması işinin daha da yaxşılaşdırılması;
5. Beynəlxalq reytinq sıralamalarında yer almaq üçün dünya universitetlərinin reytinqini müəyyən edən *Times Higher Education, QS World University Ranking* və başqa təşkilatların seminar, sərgi və digər tədbirlərində iştirakın təmini və təşkili;

**Hədəf 5. Beynəlxalq tədbirlərin keçirilməsi və iştirak**

1. Xarici nüfuzlu universitetlərin alimlərinin dəvəti ilə BSU-da təlim və seminarların təşkili;
2. BSU-da beynəlxalq səviyyəli tədbirlərin (konfrans, seminar, təlimlər və s.) keçirilməsi üçün şərait yaradılması;
3. Universitetin müəllim və tələbələrinin, magistrant və doktorantlarının nüfuzlu xarici elm və təhsil təşkilatlarının təşkil etdiyi proqram, layihə, konfrans, vebinar, debatlarda iştirakının təşviqi və təşkili;
4. Tərəfdaş xarici universitetlərlə birgə tədbirlərin hazırlanıb; həyata keçirilməsi;
5. Azərbaycandakı səfirliklərin təhsil attaşelərinin, beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə birgə tədbirlərin, təqdimatların, əlamətdar gün və bayramların hazırlanıb keçirilməsi;
6. Universitetin beynəlxalq proqram və layihələrdə, qrant müsabiqələrində və digər tədbirlərdə uğurlu iştirakının təmin edilməsi.

**Hədəf 6. Əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi**

1. Xarici universitetlərlə qurulmuş əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi;
2. BSU-nun əməkdaşlıq etdiyi digər yeni xarici universitetlərlə əlaqələrinin rəsmiləşdirilməsi və tətbiqinə nəzarət
3. Beynəlxalq təşkilatlarla, tərəfdaşlarla əlaqələrin effektivliyinin artırılması;
4. Qrant müsabiqələrində iştirak etməklə ölkədaxili və beynəlxalq səviyyədə yeni maliyyələşmə imkanlarının aşkar edilməsi;
5. Beynəlxalq universitet birliklərinə üzv olmaq, onların təcrübələrindən istifadə etmək, beynəlxalq əlaqələri daha da gücləndirməklə birgə layihələrdə iştirakın genişləndirilməsi;
6. Beynəlxalq səviyyəli elm və təhsil qurumlarının fəaliyyətinin izlənilməsi, qrant layihələrində, fundamental elmi - tədqiqat və layihə-konstruktor işlərində iştirakın təmin edilməsi;
7. Təhsil sahəsində ixtisaslaşan beynəlxalq səviyyəli qurumların həyata keçirdiyi layihələrdə, apardığı monitorinqlərdə iştirakın təmin olunması.

**Qaynaq:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu https://www.edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası https://president.az/az/articles/view/9779

3. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”
https://www.edu.gov.az/az/programmes/2019-2023-dovlet-proqrami
4. “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında”
https://president.az/az/articles/view/56763
5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
https://edu.gov.az/az/news-and-updates
6. Təhsildə Əsas Keyfiyyət Faktorları (The Quality Factors İn Education)
https://www.academia.edu/50781008/T%C9%99hsild%C9%99_%C6%8Fsas_Keyfiyy%C9%99t_Faktorlar%C4%B1_The_Quality_Factors_%C4%B0n_Education_
https://edu.gov.az/az/news-and-updates